**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin İdarəetmə sistemlərinin sertifikatlaşdırılması üzrə orqanı**

**Təsdiq edirəm:**
**“Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin Təlim-tədris Mərkəzi İdarəetmə sistemlərinin və personalın sertifikatlaşdırılması orqanının direktoru**

**______________ S.Q.Əliyev**

**“23” “06” 2017-ci il**

# “Sertifikata istinad və uyğunluq nişanından istifadə etmə qaydaları” PROSEDURU

**İşlədi ________ H.R.Ağamalıyev**

**“23” “06” 2017-ci il**

**2017**

# 1. Ümumi müddəalar

Bu prosedur Sertifikatlaşdırılan təşkilatda Sertifikata istinad və uyğunluq nişanından istifadə qaydalarını müəyyən edir.

# 2. Normativ istinadlar

**2**.1 İSO/İEC 17021:2015 "Uyğunluğun qiymətləndirilməsi idarəetmə sisteminin auditini keçirən və sertifikatlaşdırmasını aparan orqanlara olan tələblər "
2.2 R10.06 "TÜRKAK Akkreditasiya Nişanı"nın TÜRKAK tərəfindən akkreditasiya edilmiş təşkilatlarda istifadəsi ilə əlaqəli şərtlər" (nəşr 10, təsdiq tarixi 27.02.2017).

# 3. Məsuliyyət

**3.1.Sertifikatlaşdırılan təşkilatın rəhbəri**
-uyğunluq nişanından istifadəyə.

**3.2 Sertifikatlaşdırma orqanının rəhbəri**
-sertifikatlaşdırılan təşkilatlar tərəfindən uyğunluq nişanından istifadəyə nəzarət.

# 4. Uyğunluq nişanından istifadə qaydaları

Sertifikatlaşdırma Orqanı sifarişçilərin uyğunluq nişanından istifadəsinin izlənməsini təmin etməlidir**.**

**4.1.** Uyğunluq nişanı sertifikatlaşdırmış idarəetmə sisteminin identifikasiyası üçün təyin edilir.

**4.2**. Uyğunluq nişanı yalnız sertifikatlaşdırılmış sahə üçün istifadə olunur.

**4.3**. Sertifikatlaşdırma sahəsinə aid olmayan məhsul və ya xidmət uyğunluq nişanı ilə identifikasiya edilmiş kataloq və reklam vərəqlərinə daxil edilməməlidir.

**4.4** Məhsulun keyfiyyətini təsdiq edən sənədlərdə uyğunluq nişanından istifadə olunmamalıdır.

**4.5** Uyğunluq nişanı dəftərxana ləvazimatlarında, reklam materiallarında, marketinq sənədlərində, kataloqlarda və s. istifadə oluna bilər.

**4.6** Uyğunluq nişanı məhsulların üzərində və ya onun qablaşdırılmasında istifadə edilməməlidir,çünki bu məhsulun uyğunluğu kimi anlaşılır. Ancaq məhsulların bağlaması üzərində təşkilatın sertifikatlaşdırılmış idarəetmə sisteminə sahib olduğunu bildirən ifadə yerləşdirilə bilər, bir şərtlə ki bu ifadə heç bir halda məhsulun, prosesin və ya xidmətin sertifikatlaşdırıldığı kimi başa düşülməsin. Bu ifadədə aşağıdakılar vurğulana bilər:

- Sertifikatlaşdırılmış təşkilatın adı və ya markası;
- Idarəetmə sisteminin növü ( məsələn, Keyfiyyəti idarəetmə sistemi, ətraf mühitin idarəedilməsi sistemi) və tətbiq edilən standart;
- Sertifikatlaşdırma orqanı haqqında məlumat.

Qeyd 1: Məhsulun bağlaması (qablaşdırılması), məhsul hissələrə ayrılmadan və ya hər hansı zərər görmədən ayrılan bölüm hesab edilir.

**4.7** Sertifikatlaşdırma orqanı sifarişçini uyğunluq nişanı ilə təmin edir.

**4.8**. Uyğunluq nişanı təşkilatın loqotipindən böyük ölçüdə olmamalıdır.

**4.9**.Sertifikatlaşdırma Orqanı öz uyğunluq nişanından laboratoriya sınaqlarının, kalibrlənmənin nəzarət hesabatlarında istifadə edilməsinə yol verməməlidir, çünki bu hesabatlar bilavasitə məhsula aiddir.

**4.10** Uyğunluq nişanından istifadə etdikdə yanlışlığa yol verilməməlidir.

**4.11. Sertifikatlaşdırma Orqanının uyğunluq nişanı "Azərbaycan Standartlaşdırma İnstitutu" publik hüquqi şəxsin İdarəetmə sistemlərinin sertifikatlaşdırılması üzrə orqanının loqotipi qəbul edilib**.(Əlavə 1.)

## 5. Sertifikatlaşdırma Orqanının Sertifikata istinad üzrə sifarişçi təşkilata olan tələbləri

Sertifikatlaşdırma statusu haqqında kütləvi informasiya vasitələrində (internet seti, reklamlar, kataloqlar və digər sənədlər) məlumat verdikdə Sertifikatlaşdırma Orqanının aşağıda göstərilən tələblərini yerinə yetirməlidir:

**5.1**. Sertifikat haqqında məlumat verdikdə heç bir yanlışlığa yol verməməlidir.

**5.2**. Yanlışlığa aparan hallarda sertifikatdan istifadə etməməlidir.

**5.3**. Sertifikatın qüvvədə olması müvəqqəti dayandırıldıqda və ya o ləğv edildikdə ondan reklam məqsədilə istifadə edilməməlidir.

**5.4**. Sertifikatın tətbiq sahəsi məhdudlaşdırıldıqda reklam materiallarında düzəlişlər etməlidir.

**5.5**. Keyfiyyəti idarəetmə sisteminin sertifikatına istinad edildikdə, bunu məhsulun (xidmətin) və ya prosesin sertifikatlaşdırılması kimi anlaşılmasına yol verilməməlidir.

**5.6**. Sertifikatın sertifikatlaşdırma sahəsinə aid olmayan fəaliyyətlərə şamil edilməsi kimi başa düşülməsinə yol verilməməlidir.

**5.7**. Sertifikatlaşdırma Orqanının imicinə mənfi təsir edən və ya sertifikatlaşdırma sisteminə ictimaiyyətin inamının azalmasına səbəb olan hallarda sertifikatdan istifadə etməməlidir.

Sertifikatlaşdırma sənədlərindən, uyğunluq nişanından və ya auditlərin nəticələri üzrə hesabatlardan istifadə zamanı yanlışlığa yol verilən və ya sertifikatlaşdırmaya

düzgün istinad edilməyən halların qarşısını almaq üçün SO nəzarət tədbirlərini həyata keçirməlidir.

Bu tədbirlərə korreksiyaedici tədbirlər, sertifikatın qüvvədə olmasının müvəqqəti dayandırılması və ya onun ləğvi haqqında informasiyanın nəşri və lazım gələn halda məhkəmə iddialarının irəli sürülməsi daxildir.

**Əlavə 1**

# “Azərbaycan Standartlaşdırma İnstitutu” publik hüquqi şəxsin İdarəetmə sistemlərinin sertifikatlaşdırılması üzrə orqanının

## Uyğunluq nişanı